*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 iyun 2019-cu il № 49 (2366) Qiyməti 30 qəpik


## Azərbaycan Ordusu - 101

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" hərbi rütbəsi**

general-mayor Fuad Nadir oğlu Məmmədova
general-mayor Zahid İbrahim oğlu Hüseynova

**"general-mayor" hərbi rütbəsi**

polkovnik Qədir Əşrəf oğlu Nəsibova
polkovnik Rasim Rza oğlu Babayevə
polkovnik Vüqar Əfqan oğlu Əliverdiyevə
polkovnik Polad İsrayıl oğlu Həşimova
polkovnik İlqar Zakir oğlu Lətifova
polkovnik Məhəmməd Kərim oğlu Həsənova.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2019-cu il.

## Bakıda BMT Forumunun keçirilməsi Azərbaycanın beynəlxalq arenada apardığı uğurlu siyasətin nəticəsidir

Dünyanın 190-dan çox ölkəsindən 500-dək nümayəndənin iştirak etdiyi foruma müxtəlif ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirləri, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxsləri qatılıblar. BMT-nin Dövlət Xidmətləri Forumunun Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq arenada apardığı uğurlu siyasətin nəticəsidir.

Bu fikri AZƏRTAC-a müsahibəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında Dövlət İdarəçiliyi Direktorluğunda siyasətin əlaqələndirilməsi və Dayanıqlı İnkişaf Məqsədləri bölməsinin siyasi məsləhətçisi Karina Lindberq deyib.

"İnanıram ki, dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlərin müzakirə olunduğu, dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin paylaşıldığı bu forum öz müsbət nəticələrini verəcək", - deyə Karina Lindberq qeyd edib.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır




Ordu quruculuğu tarixi bir prosesdir. Bu proses xalqın mənəvi, hərbi, ictimai keyfiyyətləri ilə dolğunlaşır. Ordu dövlətin suverenliyini və onun ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvədir. Ona görə də ordu quruculuğu dövlət quruculuğunun tərkib hissələrindən biridir. Bu gün Azərbaycanın müdafiə qabiliyyəti ölkənin milli maraqlarının təmin edilməsində əsas rol oynayır.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin prioritet vəzifələrindən biri ölkənin təhlükəsizliyinin təminatçısı olan ordunu yaratmaq və formalaşdırmaqdan ibarət idi. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti ilk mütəşəkkil hərbi hissəsinin - əlahiddə korpusun yaranması haqqında qərar verdi. Bu qərarla da Şərqin müsəlman aləmində ilk demokratik hökumətin öz ordusunun yaratmasına hüquqi baza yarandı. Sonra ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında fərman imzalandı. Qısa müddətdə Azərbaycanda milli ordu quruculuğunda əsaslı nəticələr əldə olundu. Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal olunduqdan sonra milli ordu hissələri XI Qızıl Ordunun tərkibinə daxil edildi.

1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndə ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək üçün milli ordusunu yaratdı.

Hələ XX əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq Azərbaycanda milli ordu quruculuğu prosesi, onun formalaşması və inkişafı dünya şöhrətli siyasətçi, müasir dövlətimizin banisi ulu öndər Heydər Əliyevin adı və zəngin fəaliyyəti ilə bağlıdır. Xalqımızın Ümummilli Lideri Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ordu quruculuğu, milli zabit kadrlarının hazırlığı məsələlərini daim önə çəkib.

**(Ardı 3-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib



*İyunun 25-də Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Silahlı Qüvvələr Günü münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın xatirəsinə ucaldılmış Əbədi məşəl kompleksinin önünə əklil və şəhid məzarlarının üzərinə gül dəstələri qoyub.



# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Mahmudov Qəşəm Fərzalı oğlu - polkovnik
Qasımov Mübariz Sayıl oğlu - mayor
Orucov Telman İlyas oğlu - mayor
Mustafayev İlham Abbas oğlu - kiçik leytenant

**"Vətən uğrunda" medalı ilə**

Ələkbərov Pərviz Ağasalam oğlu - polkovnik
Əliyev Əli Şahverdi oğlu - tibb xidməti polkovniki
Nəsibov Bayram Nəsib oğlu - polkovnik
Məmmədov Anar Əmiralı oğlu - polkovnik-leytenant
Məmmədov Zaur Alxan oğlu - polkovnik-leytenant
Rizvanov Səməndər Səməd oğlu - polkovnik-leytenant
Vəliyev Zöhrab Naib oğlu - mayor

**"İgidliyə görə" medalı ilə**

Əsədov Səxavət Ağagül oğlu - polkovnik
Cumayev Akif Kazım oğlu - polkovnik-leytenant
Əfəndiyev Samir Zakir oğlu - polkovnik-leytenant
Həziyev Samir Mətləb oğlu - polkovnik-leytenant
Mövlanov Nizami Bəydəmir oğlu - polkovnik-leytenant
Bağıyev Mirdamət Səristan oğlu - mayor
Babayev Vüqar Eyvaz oğlu - gizir
Şəkərov Firudin İlqar oğlu - gizir
Rzaquliyev Allahqulu Yusif oğlu - çavuş
Məmmədov Mehman Məmməd oğlu - kiçik çavuş

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Babayev Əlizadə Əhmədağa oğlu - polkovnik
Dərgahlı Vaqif Rafiq oğlu - polkovnik
Gülməmmədov Mehman Fərman oğlu - polkovnik
Məhərrəmov İzzət Məhəmmədəli oğlu - polkovnik
Məmmədov İsmixan Valeh oğlu - polkovnik
Nəbiyev Firuddin İsaxan oğlu - tibb xidməti polkovniki
Osmanov Tofiq Hüseyn oğlu - 1-ci dərəcəli kapitan
Rəcəbov Yadigar Mütəllim oğlu - polkovnik
Abasov Vüqar Tofiq oğlu - 2-ci dərəcəli kapitan
Ağabalayev Kamran Hacıəli oğlu - polkovnik-leytenant
Ağayev Bəhruz Allahverdi oğlu - polkovnik-leytenant
Divanov Nazim Musa oğlu - polkovnik-leytenant
Əfəndiyev Samir Sabir oğlu - polkovnik-leytenant
Əliyev Bəxtiyar Oktay oğlu - polkovnik-leytenant
Əzizov Firudin Novruz oğlu - polkovnik-leytenant
Nəsirov Eldəniz Ağamalı oğlu - polkovnik-leytenant
Niftəliyev Rəşid Ağaşərif oğlu - polkovnik-leytenant
Saruxanov Saruxan İslamuddin oğlu - polkovnik-leytenant
Yolçuyev Yolçu Məhəmməd oğlu - polkovnik-leytenant
Piriyev Rəşad Piri oğlu - mayor
Zülfüqarov Zülfüqar Rauf oğlu - mayor
Qorçiyev Cəfər Keniş oğlu - kapitan
Məlikov Famil Alim oğlu - kapitan
Musibov Veysəl Yadullayeviç - kapitan
Məmmədov Yaşar Mürsəl oğlu - leytenant
Mustafayev Cavad Cavanşir oğlu - leytenant
Abdullayev İbrahim Savalan oğlu - baş gizir
Əliyev Elşad Əli oğlu - gizir
Qurbanov İsmayıl Cəlal oğlu - gizir
Hacəliyev Mübariz Hacəli oğlu - baş çavuş
Cəfərov Müşfiq Qərib oğlu - çavuş
Dəmirov Alim Ərəb oğlu - çavuş
Məmmədov Vüqar Vilayət oğlu - çavuş
Vəliyev Elçin Əjdər oğlu - kiçik çavuş
Babayev Müşfiq İsmayıl oğlu - baş əsgər (ölümündən sonra)
Məmmədov Ayaz Əvəz oğlu - əsgər
Nəmətov Namiq Ağaverdi oğlu - əsgər (ölümündən sonra)
Ramazanov Azad Gülağa oğlu - əsgər (ölümündən sonra)
Şükürov Saleh Niyaz oğlu - əsgər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2019-cu il.

# Azərbaycan Ordusunun yaradılmasının 101 illiyi münasibətilə şəxsi heyətə

## Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Azərbaycan Ordusunun yaradılmasının 101 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, dövlət müstəqilliyimizin qorunması və ərazi bütövlüyümüzün təmin edilməsi naminə müqəddəs xidmətinizdə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan Ordusunun nizami ordu kimi formalaşması müasir Azərbaycanın dövlətçilik memarı olan böyük tarixi şəxsiyyət ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu ordu quruculuğu sahəsində uğurla davam etdirir. Həyata keçirilən irimiqyaslı islahatlar, ordunun ən müasir texnika və avadanlıqlarla təchiz edilməsi, yeni şəhərciklərin inşası və tələb olunan bütün hərbi infrastrukturun yaradılması nəticəsində bu gün Azərbaycan Ordusu nəinki bölgədə, dünyada güclü ordular sırasında layiqli yerlərdən birini tutur.

Son genişmiqyaslı təlimlər bir daha təsdiqlədi ki, yüksək döyüş qabiliyyətli və mənəvi-psixoloji hazırlıqlı Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu Möhtərəm Prezident, cənab Ali Baş Komandanın istənilən döyüş əmrini uğurla yerinə yetirməyə qadirdir.

2016-cı ildə aprel döyüşlərində Azərbaycan Ordusunun kiçik bir hissəsi tərəfindən Ermənistan silahlı qüvvələrinin darmadağın edilərək döyüş meydanında üstünlüyümüzün təmin edilməsi, 2018-ci ilin may ayında isə Naxçıvanda həyata keçirilən Günnüt əməliyyatı zamanı torpaqlarımızın bir hissəsinin və strateji əhəmiyyətli yüksəkliklərin işğaldan azad olunması bir daha ordumuzun gücünü nümayiş etdirdi.

2018-ci ildə Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilən möhtəşəm paradlar da Azərbaycan Ordusunun qüdrətini göstərdi.

Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatı və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının, eləcə də hərbi qulluqçulara ödənilən müvəqqəti mənzilin kirayəsi üçün pul kompensasiyasının üç dəfə və müharibə veteranlarına ödənilən məbləğin artırılmasından ruhlanan şəxsi heyət Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirməkdə davam edir. Dövlət başçısının sərəncamına əsasən hərbi qulluqçular mütəmadi olaraq xidməti və daimi mənzillərlə təmin edilir, onların maddi, sosial-məişət, xidməti şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da uğurla davam etdiriləcəkdir.

Əlamətdar bayram günündə Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsini hörmətlə yad edir, müqəddəs amal naminə sağlamlığını itirmiş hərbçilərimizə, onların ailə üzvlərinə, hörmətli veteranlarımıza da səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Əminliklə bildirirəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə daim sadiq qalaraq, siz döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, yeni qələbələr əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıraraq Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazır olacaqsınız.

Bir daha hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Müdafiə naziri Silahlı Qüvvələr günü ərəfəsində xidməti müşavirə keçirib

*Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*





Silahlı Qüvvələr Günü münasibətilə öz təbriklərini müşavirə iştirakçılarına çatdıran Müdafiə naziri hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin imzaladığı sərəncamın Ordumuzun bütün şəxsi heyəti tərəfindən dərin minnətdarlıq hissi və böyük ruh yüksəkliyi ilə qarşılandığını xüsusi qeyd edib. Nazir dövlətimizin bu sahədə gördüyü işlərin davamlı olacağından əminliyini ifadə edib.

Müdafiə naziri qoşunların təmas xəttində əməliyyat şəraitinin ciddi nəzarətdə saxlanılması, şəxsi heyətin sayıqlığının artırılması və təhlükəsizliyinin təmin edilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi barədə vəzifəli şəxslər qarşısında tapşırıq qoyub. Nazir, həmçinin, hava şəraitini nəzərə alaraq şəxsi heyət arasında istilik və günvurma hallarının qarşısının alınması, onların sağlamlığına diqqətin artırılması və hərbi hissələrdə yangın təhlükəsizliyi tədbirlərinin görülməsi barədə də göstəriş verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır

**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycanda vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Başlanğıcını 1993-cü il noyabrın 2-dən - Ulu Öndərin xalqa müraciətindən götürən və hərb tariximizə Heydər Əliyevin müasir ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və vahid komandanlığa tabe olan hərbi birləşmələr nəinki Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldı, hətta Horadiz əməliyyatı ilə çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdi.

Ümummilli Liderimizin 22 may 1998-ci il tarixli qərarına əsasən, 26 İyun - Silahlı Qüvvələr Günü elan edildi. Hər il xalqımız bu günü böyük təntənə ilə qeyd edir. Ümummilli Liderimiz bu fərmanı imzalamaqla tarixi həqiqətin və milli ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox gərəkli bir addım atdı. 1998-ci il iyunun 25-də Azərbaycan Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Ulu Öndər bu barədə deyirdi: "Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin - ölkəmizin müstəqilliyini elan edən Xalq Cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycanın Silahlı Qüvvələri, ordusu günü elan etmişik."

Ulu öndər Heydər Əliyevin müasir Azərbaycan Ordusunun daha da qüdrətlənməsi istiqamətində apardığı böyük işlər dövlətimizin başçısı, Silahlı



Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Hazırda ordumuzun arsenalında olan ən müasir texnikalar, artilleriya qurğuları, döyüş təyyarələri və digər silahlar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında keçirilən genişmiqyaslı təlimlər şəxsi heyətin döyüş hazırlığını daha da artırır.

Bölgədə ən qüdrətli orduya malik Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlığının inkişaf etdirilməsi məqsədilə NATO tərəfindən yaradılmış Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olması, "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşularaq hərbi təlimlərdə iştirak etməsi nizami ordumuzun NATO standartları səviyyəsində hazırlıqlı olduğunun göstəricisidir. Azərbaycan zabitlərinin beynəlxalq standartlara cavab verən xidmətlərinin beynəlxalq hərbi ekspertlər tərəfindən yüksək qiymətləndirilməsi hər bir azərbaycanlıda qürur hissi doğurur. Bu baxımdan, inamla demək olar ki, NATO ilə Azərbaycan arasında əməkdaşlığın getdikcə daha da güclənməsi ölkəmizdə orduya göstərilən diqqət və qayğının nəticəsidir.

Hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək, onların məişət şəraitini yaxşılaşdırmaq məqsədilə də mühüm layihələr icra olunur. Azərbaycan Ordusunun şəxsi heyətinin sosial şəraitinin yaxşılaşdırılması məsələsinə xüsusi diqqətlə yanaşan Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə çox mühüm və ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ordumuzun şəxsi heyətinin xidmət şəraiti getdikcə daha da yaxşılaşır. Əlverişsiz, köhnə hərbi hissələr daha müasir dünya standartlarına cavab verən yeni hərbi şəhərciklərlə əvəz olunur. Bəzi hərbi hissələrdə təmir-bərpa işləri aparılır. Bu da şəxsi heyətin döyüş, mənəvi-psixoloji və digər hazırlıqlarının artırılmasına güclü təkan verir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin cəbhə bölgələrinə səfərləri zabit və əsgərlərimizin döyüş əzmini artırmaqla xalq-ordu birliyini daha da möhkəmləndirir.

Ordumuzun 2016-cı ilin aprelin əvvəllərində Dağlıq Qarabağda və ötən ilin mayında Naxçıvanda həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatlarında düşmən işğalında olan ərazilərimizin bir hissəsi, bəzi strateji əhəmiyyətli yüksəkliklər azad edildi.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir ordumuz və ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində görülən işlər bu gün öz böyük səmərəsini verir və bundan sonra da verəcəkdir. Təsadüfi deyildir ki, ötən il Azərbaycan Ordusunun və Bakının işğaldan azad olunmasının 100 illiyi ilə əlaqədar Azadlıq meydanında keçirilən hər iki parad da ölkəmizin müdafiə qabiliyyətinin göstəricisi və dövlətimizin hərbi gücünün təsdiqi kimi tarixə düşdü.

Azərbaycanda ordu dövlət üçün prioritetdir, ordu quruculuğuna fasiləsiz, dönməz diqqət vardır. Hərbi qulluqçuların vəzifə maaşlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı bu diqqətin təzahürüdür.

Son illərdə həyata keçirilən irimiqyaslı islahatlar, genişmiqyaslı təlimlər, ən yüksək texnikalarla və qurğularla təchizat, ümumən hərtərəfli diqqət və qayğı şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsini nəzərəçarpacaq dərəcədə yüksəldib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır." Bu gün Azərbaycan Ordusu nəinki Cənubi Qafqazda, dünyada ən güclü ordular sırasındadır. Bu ordu torpaqları işğaldan tam azad etməyə qadirdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissələrdə “Açıq qapı” günü

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ictimai nəzarətin gücləndirilməsi, ordu və xalq birliyinin daha da möhkəmləndirilməsi, əsgər ailələri ilə aparılan işin səmərəliliyinin yüksəldilməsi məqsədilə hərbi qulluqçuların valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib. Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzi, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi, eləcə də digər incəsənət kollektivlərinin, tanınmış müğənnilərin iştirakı ilə təqdim edilən konsert proqramlarından sonra hərbçilər və qonaqlar üçün bayram süfrələri təşkil olunub.*



"N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinin qarşısında qələbəlikdir. "Açıq qapı" günündə iştirak etmək üçün respublikamızın müxtəlif bölgələrindən əsgər valideynləri, ictimaiyyət nümayəndələri hərbi hissəyə gəliblər. Onlar hərbi hissənin bayramsayağı bəzədilmiş ərazisində yüksək ehtiram və səmimiyyətlə qarşılandılar.

Ziyarətçilər ilkin olaraq şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış oldular, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanasına və hamam-camaşırxanaya baş çəkdilər.

Hərbi hissə ilə tanışlıq zamanı zabitlər əsgər valideynlərinə və yaxınlarına xidmət şəraiti, əsgərlərin qida rasionu barədə ətraflı məlumat verdilər, onları maraqlandıran sualları cavablandırdılar.

Tədbir əsgər yeməkxanasında süfrə arxasında davam etdi.

Zəruri rituallardan sonra Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək bildirdi ki, son illər ordumuzda həyata keçirilən islahatlar, yeni hərbi hissələrin inşası və aparılan əsaslı təmir işləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəlməsinə böyük təkan verib. "Bizim gücü, müasir texnikalarla təchiz edilmiş qüdrətli ordumuz var. Zabit və əsgərlərimiz yüksək döyüş hazırlığına malikdirlər. 2018-ci ildə keçirilən möhtəşəm hərbi paradlar da bir daha təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir...

Ordusuna güvənən xalq yenilməzdir. Xalq ilə ordunun birliyi hər ikisini qüdrətli edir. Bizim xalqına arxalanan ordumuz, ordusuna güvənən xalqımız var".

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev tədbir iştirakçılarını Müdafiə naziri adından salamlayaraq 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə əsgər və zabit heyətini təbrik etdi. Ənənəvi keçirilən "Açıq qapı" gününün ictimaiyyətlə ordu arasında münasibətləri daha da



səmimiləşdirən tədbir olduğunu bildirən nazir müavini qeyd etdi ki, xalqın orduya güvənci, ordunun xalqa inamı ordu quruculuğu prosesində olduqca əhəmiyyətlidir. "Bu gün ordu quruculuğunda qazanılan nailiyyətlər Ali Baş Komandanın rəhbərliyi altında aparılan irimiqyaslı islahatların təzahürü, orduya diqqət və qayğının bariz nümunəsidir. Ordumuzda bütün istiqamətlər üzrə inkişaf yüksək səviyyədədir. Xalqımızın orduya inam hissi yüksəkdir. Ordu ilə xalqın birliyi belə tədbirlərdə daha da möhkəmlənir. Genişmiqyaslı mədəni-kütləvi tədbirlər xalqla ordunun yenilməz birliyinin təzahürüdür".

Polkovnik Qədir Nəsibov “Açıq qapı” günlərində əsgər valideynlərinin, ictimaiyyət nümayəndələrinin ordu həyatı ilə daha yaxından tanış olduqlarını vurğuladı. Bu görüşlərin ordu haqqında geniş təsəvvür yaratdığını bildirdi. Bu günün ordu ilə cəmiyyət arasında əlaqələrin formalaşmasında müstəsna rolu olmasından söz açaraq bildirdi ki, hər an Ali Baş Komandanın verəcəyi əmrə hazırıq.

Çöhrələrə təbəssüm, ürəklərə rahatlıq verən görüşün təəssüratlarını öyrənmək üçün əsgər süfrəsinə qonaq olduq. Valideynlərə yaxınlaşarkən üzlərindəki razılığı, gözlərindəki aşıb-daşan sevinci görməmək mümkün deyil. Fərman Hüseynov, Yusif Mahmudov, Təzəgül Əzizova, Nəsif Piriyev, Mahirə Hüseynova, Kəmalə Xəlilova və başqaları dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər. Ordumuzda ənənə halını alan "Açıq qapı" gününün keçirilməsinin çox bəyənilən, təqdirəlayiq hal olduğunu qeyd etdilər. "Övladlarımızın xidmət yerləri ilə yaxından tanış olub, gündəlik məişət şəraitinin nə qədər yüksək olmasını öz gözlərimizlə görürük. Az öncə əsgər yataqxanasında olduq. Əsgərlərimizin şəraitinə baxanda adamın ürəyi açılır. Hər tərəf təmiz və səliqəlidir. Yeməkxanaya, mətbəxə baş çəkdik, burada müasir tələblərə cavab verən avadanlıqların olduğunu, milli xörəkləri qadın aşpazların hazırladığını görəndə ürəyimiz dağa döndü. Övladlarımızla birlikdə əsgər süfrəsində nahar etdik. Çox dadlı, ləzzətli milli xörəklər hazırlanmışdı. Biz ordumuza inanırıq".

Tədbir Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin biri-birindən şən mahnı və rəqsləri ilə başa çatdı.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

Böyük qələbəlik "Açıq qapı" gününə əsgər valideynlərinin, onların timsalında ictimaiyyətin böyük maraq göstərdiyinin, bu tədbirə ordu quruculuğunun tərkib hissəsi kimi dəyər verildiyinin təsdiqidir. Ordu ilə ictimaiyyətin münasibətini daha da dönməzləşdirən "Açıq qapı" günü təkcə əsgər valideynlərinin deyil, hamının böyük maraqla qarşıladığı tədbirdir. Müdafiə nazirinin əmriylə keçirilən bu tədbir həm də böyük mənəvi-psixoloji təsirə malikdir...

"N" hərbi hissəsində tədbiri mayor Famil Məmmədov açaraq "Açıq qapı" gününün əhəmiyyətindən danışdı:

- Bu tədbir əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm əhəmiyyətə malikdir. Əsgər bir daha görür və əmin olur ki, ictimaiyyət orduya inanır, inandığı ordunun əsgərlərinə böyük ehtiram göstərir. Hərbi anda sədaqətlə xidmət edən əsgərlər bu ehtiramı da nümunəvi xidmətiylə doğrultmağa çalışır. 2016-cı ilin Aprel döyüşlərində bu günün əsgərləri orta məktəbdə oxuyurdular. Döyüşlər haqqında kifayət qədər geniş məlumata malik idilər, o qələbə yeniyetmələrin, çağırışçıların vətənpərvərliyini daha da artırmışdı. Bu əsgərlər hərbi xidmətə yüksək səviyyədə vətənpərvərliklə başlayıblar. Onlar da Silahlı Qüvvələrin Ali Baş Komandanının döyüş əmrinə tam hazırdırlar. Əsgərlərimizin hər biri torpaqlarımızın azad edilməsində iştirakçı olmaq istəyir. Bugünkü tədbirə gələnlər də, tədbiri mətbuatdan izləyənlər də inanırlar ki, ordumuz yaxın vaxtlarda Ali Baş Komandanın əmriylə Böyük Qələbəni qazanacaqdır...



Valideynlər adından Hilal Cəlilov çıxış edərək bildirdi ki, "Açıq qapı" günü əsgərə valideyn nəsihətini bir daha eşitmə fürsəti verir. "Bu gün valideynlər adından əsgərlərimizə bir daha deyirəm: Vətəni daha böyük sevgilərlə sevin, zabitlərinizin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirin. Bu kəlməmləri ata nəsihəti bilin. Sizin qələbənin, Böyük Qələbənin əsgəri olacağınıza inanırıq. Yeri gəlmişkən, ordumuzun bütün əsgər və zabitlərini Azərbaycan Ordusunun yaranmasının 101-ci ildönümü münasibəti ilə təbrik edirəm."

Laçın rayonundan olan Nazim Dünyamalıyev dedi:

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır", - kəlamını hər birimiz həmişə iftixarla xatırlayırıq. Belə tədbirlər güclü ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını daha da artırır. Oğlum Şamil əsgərdir. Onun da digər əsgər yoldaşları kimi nümunəvi əsgər olacağına inanıram. Ona da inanıram ki, ordumuz Ali Baş Komandanın əmriylə işğalda olan torpaqlarımızı, bu sıradan mənim doğulub boya-başa çatdığım Laçını azad edəcəkdir...

Tədbir Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Göygöl" ansamblının solistlərinin maraqlı konsert proqramıyla tamamlandı...

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

Bəşəriyyət 78 ildi iyunun 22-sini milyonların ölümünə, on minlərin itkinliyinə, minlərlə şəhərin, kəndin dağıdılmasına bais olan Böyük Vətən müharibəsinin başlanğıc günü kimi könül qubarıyla xatırlayır. Bu gün keçirilən "Açıq qapı" günü bu qubarı unutdurub. Digər hərbi hissələr kimi, "N" hərbi hissəsi də xoş ovqatla əhatələnib...

Yayın istisində əsgər əziziylə görüşməyə gələnlər sezilməsi, hiss edilməsi çətin olmayan ürəkəcək narahatlıqla nəzarət-buraxılış məntəqəsinin qarşısında gəzişirlər. Bir tərəfə çəkilib xəyala dalanlar da var, təzə tanışıyla könül söhbəti edənlər də. Bu biçim duyğuların nəzarət-buraxılış məntəqəsinin o tərəfində də yaşanıldığını güman edirəm. Bir azdan coşqusu kövrəkliyini, kövrəkliyi coşqusunu tamamlayan tədbir olacaq. Tədbirdən sonra qoşa qollar aylardan bəri xəyallarından üzülməyənin kürəyində çarpazlaşacaq. Bunlar "N" hərbi hissəsinin qarşısında gördüklərimin, duyduqlarımın natamam təsviridi...

Valideynlər, ictimaiyyətin nümayəndələri hərbi hissənin sıra meydanındadılar. Bir azdan başlayacaq tədbirin doğmalığı zamanı - vaxtı sıxmaqdadı. Yaşanılan ürkəcək narahatlıqda zərrəcə giley yoxdu, can çəkəçəkə ucunan səbirsizlik var...

10-12 yaşlı uşağın baxışları bayaqdan bəri nəzarət-buraxılış məntəqəsindən üzülmür. Xəyallarının nizamını pozmamaq üçün ehtiyatla ona yaxınlaşıram. Ünsiyyətə başlanğıc kimi əlim aramla bir azdan tanıyacağım uşağın saçlarına enir. Qayğıyla daranmış saçlarına enir. Adını soruşuram, deyir.

(Ardı 5-ci səhifədə)

# Hərbi hissələrdə "Açıq qapı" günü

(Əvvəli 4-cü səhifədə)



- Hara baxırsan, balaca? - soruşuram.

Rəvan dilavər uşaqmış:

- Atam əsgər olub, Murovda xidmət edib. Atam deyir ki, əsgərlik borcdu. Hər oğlan bu borcu yerinə yetirməlidi. Qardaşım Kənan əsgərdi, onun yanına gəlmişik. Böyüyəndə mən də əsgər olacam.

Mənə elə gəlir ki, Rəvanı bura - hərbi hissəyə təkcə əsgər qardaşı Kənanla görüşmək istəyi deyil, həm də hərbi xidmətə maraq gətirib. Kim bilir, bəlkə də bu maraq gələcəkdə arzuya çevriləcək; "Açıq qapı" gününün neçə-neçə istəyin arzulaşmasında vasitə olacağına necə inanmayasan?! "Açıq qapı" günü həm də Rəvanların sabahlarının başlanğıcı olacaq...



Diqqətimi iki kişinin söhbəti çəkir. Öyrənirəm ki, 90-cı illərin sonlarında eyni bölükdə xidmət ediblər. 24 ildən sonra bir-birini burada görüblər. Oğulları bu hərbi hissədə xidmət edir. "Ataların yolu oğulların yoludu" deyənlər nə qədər haqlıymış...", - deyirəm. Gülümsünürlər. Bu təsadüfi hər ikisi Tanrının lütfü bilir. Tədbirdən sonra əsgər oğullarını tanış edəcəklər. Bu "Açıq qapı" günü ataların dostluğunun davamı kimi yeni bir dostluğun - əsgər dostluğunun başlanğıcı olacaq...

Hər əsgər atasını, əsgər anasını Azərbaycan Ordusunun 101-ci ildönümü münasibəti ilə təbrik edən general-mayor Mayis Bərxudarov "Açıq qapı" gününün mahiyyətindən söz açaraq deyir ki, "Açıq qapı" günü ordu ilə ictimaiyyət arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət etməklə ordu quruculuğunun tərkib hissələrindən biridir. Müdafiə nazirinin əmri ilə keçirilən "Açıq qapı" günü ictimaiyyətə hərbi hissə haqqında, daha dəqiq desək, ordu haqqında hərtərəfli məlumat verir və xarakteri etibarilə maarifləndirmə missiyasıdır. Adından da göründüyü kimi, əsgərlərlə görüşə gələnlərin qarşısında bağlı qapı olmayacaq. Zabitlərin müşayiəti ilə əsgər yataqxanalarını, yeməkxananı, camaşırxananı, idman zalını görəcəksiniz. Əmin olacaqsınız ki, hərbi hissədə, ümumən orduda şəxsi heyət üçün gözəl şərait yaradılıb.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxışında ordu ilə ictimaiyyətin birliyinin dönməzliyindən söz açaraq deyir ki, ordu xalqın, xalq ordunun dayağıdır. 2016-cı ilin aprel döyüşlərində bu münasibət özünü ordunun gücü kimi göstərdi. "Açıq qapı" günü valideynlərin orduya inamını daha da artırır. Müharibə başa çatana kimi hər birimiz Vətənə hərbçi sədaqətiylə xidmət etməliyik. Bu xidmət vətəndaşlıqdır.

Ötən ildə ordumuzun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradları böyük sevgilərlə izləyənlər ordumuzun gücünü, ordunun arsenalında olan ən müasir texnikaları, qurğuları görmüşdülər. Bu gün o texnikaları, qurğuları idarə edənlərin məişət şəraiti ilə yaxından tanış olacaqlar. Əvvəlki təəssüratları bugünkü təəssüratlar tamamlayacaq. Tədbirə gələnlərin hər biri bir daha əmin olacaq ki, yaradılmış şərait şəxsi heyətin yüksək döyüş və mənəvi-psixoloji hazırlığında mühüm əhəmiyyətə malikdir...

Amil İsgəndərov söhbət zamanı deyir:

- Mən əsgər atasıyam. Məni bu adla qürurlandırdığına görə oğlum Emilə minnətdaram. Əsgər atalarına, əsgər analarına belə gözəl anlar yaşadan "Açıq qapı" gününə görə valideynlər adından Müdafiə nazirinə minnətdarlığımı bildirirəm. Oğlumuzun yaxşı vətəndaş kimi formalaşmasında bizim başladığımız işi hərbi xdmət davam etdirir. Əslində, yekunlaşdırır. Buna görə hərbi hissənin zabitlərinə minnətdaram. Hərbi hissənin komandanlığını, zabitləri, digər hərbi qulluqçuları əmin edirik ki, əsgərlər əmr və göstərişləri bundan sonra da məsuliyyətlə yerinə yetirəcəklər. Əminik ki, Ali Baş Komandanın hücum əmrinə onlar da hazırdırlar. Torpaqlarımız yaxın vaxtlarda işğaldan azad ediləcəkdir.

Bu inam hamımızın inamıdı; "Açıq qapı" günü həm də bu inama inam kimi yaşanılır...

Tədbirin rəsmi hissəsi başa çatır.

Sağ əli əsgər oğlunun, sol əli çağırışçı oğlunun çiyninə enmiş atayla kəlmələşirəm. Gədəbəy rayonundan gəlmiş Naib Qasımov deyir ki, "Açıq qapı" günü haqqında oğlum Kənan hərbi xidmətə gələnə kimi çox eşitmişdim. "Hazırlaşanda kiçik oğlum Rəvan da bizimlə gəlmək istədiyini bildirdi. Gətirdik. Gələcəkdə o da əsgər olacaq. "Açıq qapı" günündə gördükləri onda hərbi xidmət haqqında gözəl təəssürat yaradıb...

Əsgər atasının fikirlərinə istinadən deyə bilərik ki, "Açıq qapı" gününü də çağırışçıların hərbi xidmətə hazırlığında gərəkli vasitə hesab etmək olar.

Sözarası zamanında döyüşçü olduğunu, döyüşçü atası olduğunu desə də, əsgər babası olmasıyla qürurlandığını bildirən Həsən Məmmədov deyir ki, icazə versələr, Ali Baş Komandanın əmriylə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə nəvəm Eldənizlə çiyin-çiyin döyüşməyə atası da gedəcək, mən də...

Doğmalığı ürək, könül, ruh ... müəyyənləşdirir. Aylar çəkən ayrılıqdan sonra evinə yaxınlaşanda ürəyin uçunur. Bəs bu ayrılıq illərlə ölçülərsə? - onda ömrün sarmaşığına dönən həsrət ruh sızıldadır. Bu hissləri Samux rayonunda məskunlaşmış kəlbəcərli Səməd Şəfiyevlə kəlmələşəndə yenidən yaşayıram:

- Kəlbəcərdə daş-daş dikəltdiyim qurulu evim qaldı. Yəqin uçub-dağılıb. Qayıdanda daşına-divarına sarılacam, onu yenidən dikəldəcəm. Komandir çıxışında qeyd etdi ki, ordumuz ən müasir texnikalarla, qurğularla təchiz olunub. "Açıq qapı" günündə bir daha əmin oldum ki, ordumuz torpaqlarımızı işğaldan azad edəcək.




"Açıq qapı" günü qaçqınların doğma yurda, ev-eşiyinə dönüşünün ağ işığı kimi yaşanılır...

Tədbir xoş ovqatla, şeirlə, musiqiylə davam etməkdədi...

Hamı - zabitlər də, əsgərlərin valideynləri də, ictimaiyyətin nümayəndələri də əmindirlər ki, "Açıq qapı" gününün təəssüratları hərbi hissələrdə olduğu kimi, hərbi hissələrdən uzaqlarda da xoş ovqatla yaşanılacaq...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində Müdafiə Nazirliyinin əməkdaşları, əsgər valideynləri, Füzuli Dövlət Dram Teatrının və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

General-mayor Hikmət Həsənov qonaqları salamlayaraq, Silahlı Qüvvələr Günü münasibəti ilə şəxsi heyəti və tədbir iştirakçılarını təbrik etdi. O bildirdi ki, möhkəm nizam-intizama malik ordunun yaradılması, Silahlı Qüvvələrdə vahid komandanlığın təmin edilməsi sahəsində görülən məqsədyönlü tədbirlər nəticəsində 1994-cü ilin mayında Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. "Zamanında minlərlə hərbi qulluqçu Ümummilli Liderin bir çağırışı ilə Milli Ordunun sıralarına qayıtdı. Ulu öndər Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğı nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hərbi hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Silahlı Qüvvələrin ehtiyaclarının təminatı istiqamətində Azərbaycanın müxtəlif müəssisələrində məqsədyönlü iş aparıldı. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi".

Ümummilli Liderin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu yaradıldı. Silahlı Qüvvələrimizin müasir texnika ilə təmin edilməsi, maddi-texniki bazanın yeniləşdirilməsi, hərbi qulluqçuların məişət problemlərinin həlli işinə müsbət təsir göstərdi. Beləliklə, müasir dövrümüzdə orduya qayğı xüsusilə artır və ildən-ilə diqqət gücləndirilir. Əsgər və zabitlərin sosial problemlərinin həlli istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Belə ki, bu il də Ali Baş Komandanımızın sərəncamı ilə hərbi qulluqçuların vəzifə maaşları artırıldı.

Əziz valideynlər və tədbir iştirakçıları, Müdafiə nazirinin tarşırığına əsasən, hərbi hissələrimizdə "Açıq qapı" gününün keçirilməsi ordumuzda artıq dəyərli bir ənənəyə çevrilib. Əsgərlər üçün yaradılan məişət şəraiti ilə yaxından tanış olacaqsınız. Belə yüksək məişət şəraiti Ali Baş Komandan İlham Əliyevin və Müdafə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan əsgərinə olan diqqət və qayğısının bariz nümunəsidir.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev qeyd etdi ki, "Açıq qapı" günlərinin keçirilməsi xalqla ordunun sıx əlaqəsini təmin edir. "Bu da şəxsi heyətə ruh yüksəkliyi aşılayır. Azərbaycan Ordusunda aparılan islahatlar, genişmiqyaslı təlimlər, "Açıq qapı" günlərinin və vətənpərvərlik tədbirlərinin keçirilməsi onu göstərir ki, ordumuz daha da güclənir. Bu gün hər birimiz təəssüflənirik ki, belə tədbirləri Qarabağ torpaqlarında qeyd edə bilmirik. Lakin hər birimiz əminliklə deyə bilərik ki, Ali Baş Komandan İlham Əliyev və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə gündən-günə güc və qüdrətini artıran ordumuz torpaqlarımızı tezliklə işğaldan azad edəcək."

Sonra valideynlər və ictimaiyyətin nümayəndələri yaradılmış şəraitlə tanış oldular. Tədbir iştirakçıları əsgərlərlə birgə nahar etdilər. Qadın aşpazlar tərəfindən hazırlanan yeməklərin keyfiyyətindən və dadından razılıq üzlərdəki təbəssümdən hiss olunurdu. Valideynlər övladları üçün yaradılmış yüksək məişət şəraitindən razı olduqlarını vurğulayaraq, Ali Baş Komandana və Müdafiə nazirinə təşəkkürlərini çatdırdılar.

Tədbir Füzuli Dövlət Dram Teatrının nümayəndələrinin rəngarəng çıxışları ilə sona çatdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində növbəti buraxılış mərasimi keçirildi



*Yay fəslinin ilk günüdü. Bu gün həm sevincli, həm də həyəcanlıyam. Sevincliyəm - bu gün ordu sıralarına qatılmaq üçün ilk "leytenant" hərbi rütbəsi alan xüsusi təyinatlı hərbi təhsil müəssisələri məzunlarının növbəti buraxılış mərasiminə gedirəm, həyəcanlıyam - illər öncə məzun olduğum günü xatırlayıram. Nəzarət-buraxılış məntəqəsinin qarşısında qələbəlik var. Kənardan izdihamı müşahidə etdikcə qürurlanırsan. Bu gün hamı - valideynlər, babalar, nənələr bura övladlarının xoş anlarını bölüşməyə, sevincinə şərik olmağa gəliblər. Balaca uşaqların məsum gözlərindəki sevinci də sezmək çətin deyil. Fürsətdən istifadə edib bir neçə valideynlə həmsöhbət oluram.*

Övladının xoş gününə gələn məzun Oruc Əsgərlinin anası Ramilə Hüseynova ordumuzla qürur duyduğunu dilə gətirdi: "Bu gün çox sevincliyəm. İllərdir bu anı gözləyirəm. Bir azdan oğlum "leytenant" hərbi rütbəsi alaraq ordumuzun sıralarına daxil olacaq. Bizim, həqiqətən, qüdrətli, yenilməz ordumuz var. Bizlər də bunun şahidiyik. Keçirilən təlimləri televiziya vasitəsilə izləyirik. Ordumuzla qürur duyuruq. Dövlət başçımız İlham Əliyev ordumuzun şəxsi heyətinə diqqət və qayğısını əsirgəmir. Bu diqqət və qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə, Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənova valideynlər adından, şəxsən öz adımdan təşəkkürümü bildirirəm. İnanırıq ki, övladlarımız onlara göstərilən bu etimadı doğruldacaq və işğalda olan torpaqlarımızın azadlığı üçün əllərindən gələni əsirgəməyəcəklər. Azərbaycan Ordusu respublikamızın ərazi bütövlüyünü bərpa etməyə və müqəddəs torpaqlarımızı erməni işğalçılarından təmizləməyə hazırdır."



Məzun Tuncay İmanovun dayısı Əli Zamanov bütün məzunları təbrik edərək onlara uğurlar arzuladı. Söhbətimiz əsnasında öyrənirəm ki, həmsöhbətim zabitdir, pilotdur. "Hərbçi olmaq fədakarlıq tələb edir. Hərbçi məsuliyyətli və nizam-intizamlı olmalıdır. Bu gün mən də bir dayı kimi sevincliyəm ki, bacımın oğlu məzunlar cərgəsindədir və gənc zabitdir. O da mənim kimi hərbi məktəbi pilotluq ixtisası üzrə bitirib. Onun simasında bütün məzunları təbrik edir, hər birinə gələcək xidmətlərində uğurlar arzulayıram. Bilsinlər ki, hamımızın məqsədi birdir - işğal alındakı torpaqlarımızı azad etmək."

Digər söhbətləşdiyim valideynlər də ordumuza arxalandıqlarını və inandıqlarını qeyd etdilər. Bildirdilər ki, ordumuz bu inamı tezliklə doğruldacaq və qələbə bayrağını Azadlıq meydanında keçiriləcək mərasimdə dalğalandıracaqlar.

Mərasim Ali Hərbi Məktəbin rəisi general-mayor Fizuli Salahovun Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanova məruzəsi ilə başladı.

Mərasimdə Müdafiə Nazirliyinin rəhbərliyi, yüksək rütbəli zabitləri, Ali Hərbi Məktəbin, ictimaiyyətin nümayəndələri, veteranlar, məzunların ailə üzvləri və yaxınları iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Nümunəvi hərbi orkestrin və kursantların ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərasimdə çıxış edən general-leytenant Nizam Osmanov əlamətdar gün münasibətilə gənc zabitləri, onların valideynlərini təbrik etdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatların nəticəsində Azərbaycan Ordusunun istənilən döyüş əmrini yerinə yetirməyə tam hazır olduğunu bildirən Nizam Osmanov məzunlara ölkəmizin gələcəyi, ordumuzun, dövlətimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar dilədi, qeyd etdi ki, ordu ilə xalq arasında sarsılmaz birlik var.

"Bu gün ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində, eləcə də tibb müəssisələrinin müasir tibbi avadanlıqlarla tam təchiz edilməsi, müharibə şəraitində ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün mühüm işlər görülüb. Şübhəsiz ki, bütün bu uğurların əldə edilməsində, Silahlı Qüvvələrin peşəkar orduya çevrilməsində Azərbaycanın iqtisadi inkişafı vacib rol oynayır.

Müdafiə naziri cənab general-polkovnik Zakir Həsənov tərəfindən orduda keçirilən islahatlar döyüş qabiliyyətinin artırılmasına, nizam-intizamın güclənməsinə, şəxsi heyətin sosial bazasının və tədris prosesinin yüksək səviyyədə təşkil olunmasına yönəlmişdir.

Xalqımız ordumuza böyük etimad göstərir və onu dəstəkləyir. Bu birlik bir çox çətinliklərin öhdəsindən gəlmiş və torpaqlarımızın işğaldan azad edilməsi üçün əsas göstəricidir.

Beynəlxalq hərbi tədqiqat mərkəzləri də təsdiqləyir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Şübhəsiz ki, Azərbaycan bu uğurlara hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olub", - deyə general-leytenant Nizam Osmanov vurğuladı. Bildirdi ki, cari ilin aprel ayında Xüsusi Təyinatlı Qüvvələrin döyüş hazırlığı üzrə məşğələlərini izləyən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı ordumuzun bütün şəxsi heyətinin hazırlıq səviyyəsini və peşəkarlığını yüksək qiymətləndirib. Ordu quruculuğu sahəsində görülən işlər, xüsusilə də silahlanmaya qəbul edilən ən müasir silah və hərbi texnika, o cümlədən yeni texnologiyaların tətbiqi ilə istehsal olunmuş döyüş vasitələri, bölmələrimizin hərtərəfli təchizatı, müntəzəm keçirilən genişmiqyaslı hərbi təlimlər Azərbaycan Ordusunun döyüş qabiliyyətini yüksəldir, şəxsi heyətin mənəvi-psixoloji durumuna və döyüş ruhunun yüksəlməsinə müsbət təsir göstərir.



General-leytenant Nizam Osmanov onu da qeyd etdi ki, yaradılan şəraitin nəticəsidir ki, imtahanlarda kursantlar yüksək nəticə göstəriblər. "Silahlı Qüvvələrdə digər sahələrlə yanaşı, təhsilin inkişafına da böyük diqqət yetirilir. Xüsusi təyinatlı təhsil müəssisələri uğurlu inkişaf yolu keçərək respublikanın hərbi təhsil sistemində özünə layiqli yer tutur. Xüsusi təyinatlı təhsil müəssisələrinin 2019-cu il buraxılış imtahanlarının nəticələrindən məlum olur ki, ötən illərlə müqayisədə imtahanlarda yüksək nəticə göstərənlərin sayı artıb."

Sonra ali hərbi məktəbi fərqlənmə ilə bitirən məzunlara diplom və qiymətli hədiyyə təqdim olundu.

Məktəbi fərqlənmə ilə bitirən məzunlar üzərində ulduz və aypara təsviri olan emblemləri rəmzi yaş kötüklərinə vurdular. Yaş kötüyü Silahlı Qüvvələrin sıralarına daxil olanların ölkəsinə və millətinə xidmət üçün bu vəzifəni təhvil almalarının bir rəmzi hesab etmək olar. Bütün məzunların alacaqları hər tapşırığı Vətən sevgisi ilə yerinə yetirəcəklərinin, içdikləri anda daim sadiq qalacaqlarının nişanəsidir.

Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin döyüş bayrağı bu ilin məzunları tərəfindən təhvil verildi, babalarımızın qanı bahasına ucalan, ulu öndər Heydər Əliyevin ruhunu yaşadan atribut olaraq özündən sonra sağ qalana təhvil vermədən ölməyi özünə haram bilən içdiyi bu anda daim sadiq qalacağımı bildirən gələn ilin məzunları tərəfindən qəbul edildi.

Tədbirə toplaşanlar diplom və ilk "leytenant" hərbi rütbəsi almaları münasibətilə məzunları təbrik edərək, onlara Azərbaycanın gələcəyi, ordumuzun inkişafı, dövlətçiliyimizin müdafiəsi və ölkənin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar arzuladılar.

Şəxsi heyət hərbi marşın sədaları altında tribunanın önündən keçdilər.

Mən də üzümü dünənin kursantlarına - bu günün gənc zabitlərinə tuturaq deyirəm: "Xalqımız sizin hər birinizdən şəxsi fədakarlıq gözləyir, torpaqlarımızın azad olunmasında qəhrəmanlıq nümunələri göstərməyinizi arzulayır. Bunun üçün siz nizamnamələrin tələbi ilə yaşamalı və xidmət etməlisiniz. Heç vaxt unutmayın ki, sizin təhsil aldığınız məktəb ümummilli lider Heydər Əliyevin adını daşıyır. Siz çalışmalısınız ki, bu məktəbin məzunu olmaq kimi yüksək şərəfi doğruldasınız. Vətənimizə və xalqımıza Heydər Əliyev kimi xidmət edəsiniz."

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# "Güclü dövlətin güclü ordusu olmalıdır" adlı sərgi-müsabiqəsinin qalibləri mükafatlandırılıb



*Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzində Müdafiə Nazirliyi və Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin birgə təşkilatçılığı ilə 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə həsr olunan "Güclü dövlətin güclü ordusu olmalıdır" adlı respublika uşaq incəsənət məktəblərinin şagirdləri arasında keçirilən plakat üslublu əsərlərdən ibarət rəsm sərgi-müsabiqəsinə yekun vurulub.*

Aprelin 23-dən elan edilən sərgi-müsabiqənin məqsədi Azərbaycan Ordusunun güc və qüdrətinin təbliği, Vətənə məhəbbətin tərənnümü, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, uşaq, yeniyetmə və gənclərin xüsusi istedadını və bacarığını nümayiş etdirmək, hərbi kollektivdə milli-mənəvi dəyərlərə bağlılığın formalaşdırılmasını aşkara çıxarmaq olub.

Tədbirdə hərbi qulluqçular və onların ailə üzvləri, Rəssamlar İttifaqının və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyev, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Asif Usubəliyev, direktor müavini Leyla Mehdiyeva çıxışlarında sərgi-müsabiqənin əhəmiyyətini yüksək qiymətləndirərək yeniyetmələrin dünyagörüşünün formalaşdırılması və asudə vaxtlarının səmərəli təşkili baxımından əhəmiyyətli olduğunu vurğulayıblar.

Müsabiqəyə təqdim olunan 350-yə yaxın rəsm əsərinin əsas mövzusu vətənpərvərlik və ordu quruculuğu, dövlətçiliyin əsas atributu olan Azərbaycan Ordusunun güc və qüdrətinin tərənnümü olub.

Mədəniyyət və incəsənət xadimlərindən, peşəkar rəssamlardan ibarət münsiflər heyəti qalibləri və fərqlənən iştirakçıları müəyyən ediblər.



H.Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi maraqlı konsert proqramının müşayiəti ilə tədbir iştirakçıları sərgiylə tanış olublar.

Sonda sərgidə sənət nümunələri nümayiş etdirilən yaradıcı iştirakçılara diplomlar və hədiyyələr təqdim edilib.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu"**

# Azərbaycan zabiti Rusiya Ümumqoşun akademiyasını qızıl medalla bitirib

*İyunun 21-də Moskva şəhərində Quru Qoşunlarının hərbi tədris-elmi Mərkəzində "Rusiya Federasiyası Silahlı Qüvvələri Ümumqoşun Akademiyası" dinləyicilərinin növbəti buraxılış mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bu il bu ali hərbi təhsil müəssisəsini Azərbaycan Ordusunun zabiti polkovnik-leytenant Babək Ramaldanov fərqlənmə ilə bitirərək magistr diplomu və qızıl medal alıb. Ona Dövlət imtahan komissiyasının qərarı ilə "magistr" dərəcəsi verilib.

Qeyd edək ki, keçmiş Frunze adına Hərbi Akademiya hazırda isə "Rusiya Federasiyası Silahlı Qüvvələri Ümumqoşun Akademiyası"nda hərbi kadrların hazırlığı 14 magistratura proqramı və 74 əlavə ixtisas təhsili proqramı üzrə həyata keçirilir. Bu təhsil müəssisəsində 20-dən artıq dövlətdən 200-dən çox xarici hərbi qulluqçu təhsil alır.

# Azərbaycan Müdafiə Sənayesi Nazirliyi "ARMY-2019" sərgisində təmsil olunur

Moskvadakı "Patriot-Ekspo" Konqres-Sərgi Mərkəzində "ARMY-2019" V Beynəlxalq hərbi-texniki forumu keçirilir.

AZƏRTAC xəbər verir ki, iyunun 25-dən 30-dək davam edəcək foruma 120 ölkənin nümayəndə heyəti qatılıb. Azərbaycan forumda Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunur. Müdafiə Sənayesi Nazirliyi tədbirdə öz stendini təqdim edir. Azərbaycan stendində sərgilənən 30 millimetrlik 2A42 topu və 7,62 millimetrlik "Yırtıcı" yarımavtomat snayper tüfəngi xaricdə keçirilən beynəlxalq sərgidə ilk dəfə təqdim olunur.

Azərbaycandan başqa daha 9 ölkənin, o cümlədən Türkiyə, Belarus, Hindistan, Qazaxıstan, Çin, Pakistan, Tailand, Cənubi Afrika Respublikasının milli stendləri nümayiş etdirilir. Rusiya Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumda 170-dən çox elmi-işgüzar tədbir nəzərdə tutulub.

Sərgi çərçivəsində nazir müavini Yəhya Musayevin Rusiya dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkətlərin təmsilçiləri ilə görüşləri planlaşdırılır. Görüşlərdə hərbi-texniki sahədə əlaqələrin inkişafı və yeni layihələrin reallaşdırılması istiqamətində danışıqlar aparılacaq.

"ARMY-2019" forumu çərçivəsində təşkil olunmuş sərgi Rusiyanın digər regionlarında da nümayiş etdiriləcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələr Günü münasibətilə hərbi orkestrlərin çıxışları təşkil olunacaq

**25 iyun 2019-cu il.**

26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə bu gün saat 18:30-dan 20:30-dək Bakı şəhərinin müxtəlif yerlərində hərbi orkestrlərin çıxışları olacaq.

Orkestrlər müəyyən edilmiş 6 yerdə çıxış edəcəklər:

- Dənizkənarı Milli Parkda (Azadlıq meydanı qarşısında);
- Dənizkənarı Milli Parkda (Az.Neft meydanı qarşısındakı Dövlət Bayrağının önündə);
- Fəvvarələr meydanında;
- Əhmədli qəsəbəsində Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev parkında;
- Zərifə Əliyeva parkında;
- Zabitlər parkında.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 25-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Harri O`Konnor keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Gennadi Petrika, Martin Şuster və YSPQ-nin nümayəndəsi polkovnik-leytenant Ralf Bosshard keçiriblər.

## Cəbhə bölgəsində yerləşən hərbi birlikdə təlim məşqləri keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, cəbhə bölgəsində yerləşən hərbi birlikdə döyüş atışlı təlim məşqləri keçirilib.

Senariyə uyğun olaraq təlimlərə cəlb olunan motoatıcı, artilleriya, tank bölmələri, o cümlədən aviasiya vasitələri müxtəlif tapşırıqları, eləcə də şərti düşmən hədəflərinə döyüş atışlarını icra ediblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**25 iyun 2019-cu il.**

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub. Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# Bayramınız mübarək, Azərbaycan əsgəri!

*Azərbaycan 101 il əvvəl qədim və zəngin hərbi ənənələrə əsaslanaraq müstəqil dövlətinin ordusunu yaratdı. Ölkənin milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr formalaşdırıldı.*

*Əməkdaşlarımız hərbi hissələrdə olub, əlamətdar hadisə ilə əlaqədar zabit və əsgərlərimizin fikirlərini öyrəniblər.*



**Baş leytenant Vüsal Ağalarov:**

- Orta məktəbdə oxuyarkən tarix fənninə xüsusi marağım vardı. Azərbaycan Xalq Cümhuriyyəti, onun ordusu haqqında xeyli məlumat öyrənmişdim. İllər keçdi və mən qərar verdim ki, hərbçi olacam. Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldum və "leytenant" rütbəsi alaraq ön xətdə xidmətə başladım. Xidmət müddətində bir daha şahidi oldum ki, həqiqətən də, ordumuz güclü və qüdrətlidir. Ötən il 100 illik yubileyini qeyd etdiyimiz ordumuzun gücünü, hansı müasir silah və texnikaya sahib olduğunu bütün dövlətlər də gördü.

Ordumuz günbəgün güclənir. Bölmələrimizin hazırlığı çox yüksək səviyyədədir. 2016-cı ilin Aprel döyüşlərində ordumuz bir çox strateji əhəmiyyətli yüksəklikləri düşməndən azad etməklə gücünü göstərdi. Mən fəxr edirəm ki, həmin döyüşlərin iştirakçısı olmuşam.

Bu gün yenə də ön xətdə xidmətimlə qürur duyuram. Ordumuz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin orduya diqqət və qayğısı şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəldir. Bu günlərdə ölkə başçısının orduya daha bir qayğısı hər bir hərbçinin döyüş əzmini, qələbə ruhunu yüksəltdi, hərbçilərin maaşı artırıldı. Xidmət yoldaşlarım adından ölkə başçısına minnətdarlığımı bildirirəm.

26 İyun Silahlı Qüvvələr Günüdür. Bu bir ümumxalq bayramıdır. Xalqımızı və bütün Azərbaycan əsgərlərini bu gözəl gün münasibətilə təbrik edirəm. Arzu edirəm ki, növbəti bayramlarımızı Qarabağımızda, Cıdır düzündə dalğalanan üçrəngli bayrağımızın kölgəsi altında qeyd edək. Bayramınız mübarək olsun!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İmran Rəcəbov:**

- 15 İyun Azərbaycan xalqının Milli Qurtuluş Gününü qeyd etdik, indi 26 İyun Silahlı Qüvvələr Gününü qeyd edirik. Bu bayramların hər ikisi Ümummilli Liderimizin adı ilə bağlıdır. Böyük təntənə ilə qeyd edilən bu bayramlar xalqla ordunun birliyinin təzahürüdür.

101 il bundan əvvəl Azərbaycan Milli Ordu Korpusu yaradılıb. Bugünkü ordumuz həmin ordunun varisidir. Azərbaycan ikinci dəfə müstəqilliyinə qovuşub. Bu ordumuzun nizami ordu kimi formalaşması da Ulu Öndərin adı ilə bağlıdır.

Xalqımız ordumuzun dayağı, ordumuz müstəqilliyimizin qarantıdır. Bu gün mən regionun ən güclü ordusunda xidmətimlə fəxr edirəm. Digər silahdaşlarım kimi mən də ordumuzun 101 illiyini ön xətdə - barıt qoxulu səngərlərdə qeyd edirəm. Xalqımızı, Azərbaycan



əsgərini bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm. Arzum budur ki, tezliklə həsrətini çəkdiyimiz torpaqlarımızı düşməndən azad edək və qarşıdan gələn bütün bayramlarımızı Kəlbəcərdə, Laçında, Xocalıda, Şuşada... qeyd edək.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə hərbçilərə göstərdiyi qayğıya, bu günlərdə imzaladığı sərəncama görə minnətdarlığımı bildirirəm.

**Əsgər Elgiz Cəlilov:**

- Keçən il Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş paradı böyük fəxarət hissi ilə izlədim və çox sevincliyəm ki, bu ordunun əsgəriyəm. Düşmənlə təmas xəttində torpaqlarımızı inamla müdafiə edir, Vətənə müqəddəs borcumu ödəyirəm. Komandirlərimi, əsgər yoldaşlarımı və ordu sıralarında xidmət edənlərin hamısını bu bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bu bayram təkcə hərbi qulluqçuların deyil, onların ailələrinin və doğmalarının



da bayramıdır. Fürsətdən istifadə edib öz valideynlərimi və bütün əsgər valideynlərini bu bayram münasibətilə təbrik edirəm. Gün o gün olsun ki, işğaldan azad olunmuş torpaqlarımızda Silahlı Qüvvələr Gününə həsr olunmuş möhtəşəm paradlar keçirilsin. Güclü ordunun güclü əsgəri olaraq döyüşməyə, qələbə qazanmağa hazırıq. Hər birimiz o günü səbirsizliklə gözləyirik. Ali Baş Komandanımızın döyüş əmri ilə torpaqlarımızı qısa müddətdə düşməndən azad edəcəyik.

**Əsgər Anar Süleymanov:**

- Hərbi xidmət bizim hər birimizə Vətəni daha dərindən sevməyin gərəkliyini də öyrədir. Xidmətə məhz bu amalla başlayan əsgər üçün hərbi and qədər məsuliyyətli bir and. Bu and bizə döyüş növbətçiliyini daha da məsuliyyətlə aparmağı öyrədir. Düşmənin təxribat cəhdlərinin qarşısı Vətən müdafiəçiləri tərəfindən vaxtında alınır. Torpaqlarımızın müdafiəsində ayıq-sayıq xidmət



aparırıq. Xalqımız bizə arxalanır, bizə güvənir. Xalqımızın və rəhbərliyin inamı bizi ruhlandırmaqla bərabər, 2016-cı ilin qələbəsinin davamı olacaq böyük zəfərlərə səsləyir. Üzərimizə düşən məsuliyyəti dərindən dərk edir, komandirlərimizin tövsiyələrini dinləyir, keçirilən dərsləri dərindən mənimsəyirik. Silahlı Qüvvələrimizin ildönümü münasibətilə, başda komandirlərim olmaqla, bütün hərbi qulluqçuları təbrik edirəm.

Bu gün təkcə hərbçilərin bayramı deyil. Bu gün ümumən ictimaiyyətin bayramıdır. Ona görə belə bayramlar ordu ilə ictimaiyyətin birgə bayramı hesab edilir. Mən Silahlı Qüvvələr Günü münasibətilə həm də xalqımızı təbrik edirəm.

**Əsgər Rahim Xəlilov:**

- Mən də şanlı peşə sahiblərinin və müqəddəs vəzifəni yerinə yetirən qardaşlarımın bayramını təbrik edirəm. Ordumuz bugünkü inkişaf səviyyəsinə çatmaq üçün uzun yol keçib.



Ordumuzun inkişafına əvəzsiz xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyev peşəkar zabitlərin hazırlanmasına xüsusi önəm verirdi. Məhz bunun nəticəsi idi ki, Ulu Öndər Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış ibtidai hərbi məktəbin təşkil olunmasına nail oldu. Bu gün komandirlərimizin sayəsində hərbi biliklərimizi artırır, torpaqlarımızı göz bəbəyimiz kimi qoruyuruq. Ordumuzun yaranmasının 101-ci ildönümünü səngərdə Vətən keşiyində qeyd etdiyim üçün fərəhliyəm. O səngərlər ki, neçə-neçə qəhrəman oğullar yetişdirib və neçə-neçə şəhidlik zirvəsinin başlanğıcı olub. Torpaqlarımızın bütövlüyü uğrunda canından keçənlərin ruhu bizim üçün əziz, xidməti bizim üçün örnəkdir.

Biz dünənki əsgərlərin yolunu davam etdiririk, sabahkı əsgərlər bizim yolumuzu davam etdirəcəklər. Biz Lələtəpə,



Bayraqtəpə, Günnüt zəfərlərini qazananların davamçıları olacağıq, sabahkı əsgərlər səngərləri sərhədlərə köçürəcək əsgərlərin - bizim uğurlarımızı möhkəmləndirəcəklər.

**Əsgər Sarif Məmmədov:**

- Xidmət müddətində elə məqamlar olur ki, onlar yaddaşda silinməz xatirələrə çevrilir. Mənim üçün bu gün ikiqat bayramdır. Sevinirəm ki, xidmətdə olduğum dövrdə ordumuzun həm 100 illik yubileyini, həm 101 illiyini səngərdə qeyd etdim. Səngərdə keçirdiyim bu iki unudulmaz bayram günləri mənim yaddaşımda əbədi olaraq tarixləşəcək. Tərxis olunduqdan sonra yeniyetmələrə, gələcəkdə uşaqlara bu günlər barədə, güclü ordumuzun bu illər ərzində qazandığı nailiyyətlər barədə ağızdolusu danışacam.

Uşaqlıqdan Vətənə əsgər olmaq arzusu ilə böyümüşəm. Əsgər olmaq, Vətənin keşiyində dayanmaq, onu müdafiə etmək hər birimizin övladlıq borcudur. Bu gün ön xətdə Vətən torpaqlarına keşik çəkdiyim üçün fərəhlənirəm. Xidmətimiz uğurla davam edir. Yaradılan məişət şəraiti, ərzaq və əşya təminatımız yüksək səviyyədədir. İstifadə etdiyimiz silah və cihazlar qarşıdakı düşməni nəzarətdə saxlamağa imkan verir. Əldə etdiyimiz bilik və bacarıqlar hər an düşməni məğlub etməyə hazır olduğumuzun sübutudur.

Bizim əsas məqsədimiz Azərbaycan xalqına, valideynlərimizə böyük bayram sevinci - Böyük Qələbəni yaşatmaqdır. O günə çox az qalıb. Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı azad etməyə tam hazırıq. Komandirlərimi, əsgər yoldaşlarımı, xalqımızı Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir, hər kəsə uğurlar arzulayıram.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**


| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 514 Nüsxə 3950 |